UOT:

# AZƏRBAYCANIN MƏRKƏZİ ARAN ƏRAZİLƏRİNDƏ OTLAQ VƏ BİÇƏNƏK KİMİ İSTİFADƏ OLUNAN BƏZİ SENOZLARIN MÜASİR VƏZİYYƏTİ

**N.V.MÖVSÜMOVA**
**AMEA Botanika İnstitutu**

*Məqalədə Azərbaycanın aran bölgəsinin otlaq və biçənəklərində qeydə alınmış bitki qruplaşmalarının müasir vəziyyəti təhlil edilərək, mövsümi monitorinqlərin aparılmasından və məhsuldarlğından bəhs edilir. Tədqiqatlarda fitosenozların taksonomik tərkibi və quruluşu, onlarda baş verən dəyişikliklər, bitkilərin həyati formaları təhlil edilmişdir. Məlum olmuşdur ki, ərazi florasının 35%-ni otlaq və biçənəklər təşkil edir. Mövsümi veqetasiya dövründə otlaqların məhsuldarlığı hesablanmışdır: taxıllı-müxtəlifotluq 6,97-3,78s/ha, yovşanlı-şorangəlik 7,76-5,04s/ha, qaraşoranlı-şahsevdili-qarağanlıq 6,07-5,85s/ha, birillik şorangəli-gəngizlik 14,38-11,38s/ha, iyli yovşanlı-taxıllıq 5.48- 3,74s/ha.*

***Açar sözlər:*** *aran ərazilər, otlaq və biçənəklər, yem bitkiləri, məhsuldarlıq*

Müasir dövrdə dünya florasında alimlər tərəfindən yem dəyəri yüksək olan bitkilərin öyrənilməsi və introduksiya, onların yem istehsalında əhəmiyyətinin qiymətləndirilməsi, otlaq və biçənəklərin yükünü müəyyənləşdirilməsi, kənd təsərrüfatının, xüsusilə də heyvandarlığın inkişafı baxımından aktual məsələlərdəndir [7, 8, 9, 10]. Hazırda mütəmadi olaraq istifadə olunan təbii biçənəklərin və otlaqların sahəsi ilbəil azalmaqdadır. Bunun da başlıca səbəbi müxtəlif ekoloji və antropogen amillərin, o cümlədən urbanizasiyanın eroziya prosesini sürətləndirməsi və səhralaşmanın yaranmasıdır. Antropogen və ekoloji faktorların kompleks təsiri nəticəsində yaz və qış otlaqlarında bitkiliyin tərkibi və quruluşu əhəmiyyətli dərəcədə pisləşmiş, takırabənzərliklər yaranmışdır. Şorakətli torpaqlarda lokal bitkilik, xüsusilə də halofit bitkilik inkişaf etmişdir. Belə ərazilərdə mühafizəyə ehtiyacı olan nadir, endemik və təsərrüfat əhəmiyyətli növlərə də rast gəlinməkdədir [1].

Ümumiyyətlə, biçənək və otlaqların bitkiliyi yem balansında, heyvandarlığın inkişafında və heyvani məhsulların artırılmasında böyük rol oynayır. Onların müasir vəziyyətinin müəyyənləşdirilməsi və düzgün istifadəsi iqtisadi inkişaf yönümlüdür. Bütün bunları nəzərə alaraq, Azərbaycanın bəzi aran rayonlarında otlaq və biçənəklərin müasir vəziyyətinin öyrənilməsi, məhsuldarlığının qiymətləndirilməsi qarşıya məqsəd qoyulmuşdur.

**Tədqiqatın material və metodları.**Tədqiqatlar 2017-2018-ci illərdə Kür çayı ətrafında yerləşən aran rayonlarında (Zərdab, Hacıqabul və Kürdəmir) ekspedisiya və detal-marşrut metodu ilə aparılmışdır. Geobotaniki tədqiqatlar zamanı 25-dən 40-dək fitosenozların təsviri aparılmış, floristik tərkib, bitkilik [4], həyati formalar [5], bolluq, lahiyə örtüyü, yarusluq və d. fitosenoloji əlamətlər [2, 3] öyrənilmişdir. Fitosenozların məhsuldarlığının qiymətləndirilməsi [6] üçün sahəsi 5m$^2$ olan ərazilərdə 3-4 təkrarla biçmə aparılmışdır.

**Eksperimentlər və müzakirələr.** Tədqiqat ərazi üçün qışı mülayim, yayı quraq keçən isti, yarımsəhra-və quru çöl iqlimi xarakterikdir. Torpaq tiplərinə görə isə boz-çəmən, boz-qonur, boz-qəhvəyi şorakətvari, şoran və b. xarakterikdir. Bu ərazlərdə torpağın orta dərəcədə yuyulması müşahidə edilmişdi. Lakin aqrosenozlarda suvarma eroziyası nəticəsində torpağın yuyulması şiddətli dərəcəyə çatmışdır. Eroziya prosesi torpağın morfloloji quruluşuna təsir etdiyi kimi, onun münbütlik qatını da dağıdaraq humusun tərkibinin keyfiyyətcə dəyişilməsinə və nəticə etibarı ilə torpağın məhsuldarlığının zəifləməsinə səbəb olur. İqlim və torpaq amillərinin təsiri əsasən zonal xarakterli, şorangəli səhralarda lokal, çay kənarlarında isə intrazonal bitkiliyin formalaşmasına təsir edir.

Tədqiqat ərazilərində mövcud olan bitki ehtiyatları əvəzolunmaz yem bazasının təşkili üçün olduqca mühümdür. Bitki örtüyünün formalaşmasında xüsusilə də, erkən yaz florasında senozların əsas qurucularından olan müxtəlif taxıl növləri, müxtəlifot efemer və efemeroidlər yaz otlaqlarının yem qrupu üçün xarakterik növlərdir. Onlar tərkibi və quruluşuna görə fərqlənən müxtəlif fitosenozlar yaradırlar. Yayın əvvəllərində efemerlər və taxılları müxtəlifotlar əvəz edir. İkincili veqetasiya yağışların bol olduğu dövrdə sentyabrın axırı, oktyabrın əvvəllərində başlayır. Ərazidə bitkiliyin bu cür inkişaf xüsusiyyətlərini il ərzində mal-qaranın otarılmasının təşkili zamanı nəzərə almaq mühümdür.

Yem bitkilərinin müasir vəziyyətinin qiymətləndirilməsi məqsədilə seçilmiş nümunə meydançaları-

nın flora tərkibinin təhlili zamanı 11 fəsiləyə aid 120 növün yayıldığı aydın olmuşdur. Müəyyən olunmuşdur ki, bu senozların tərkibində *Poaceae, Fabaceae, Chenopodiaceae* və *Asteraceae* fəsilələri nümayəndələri üsünlük təşkil edir (Şəkil 1.).




**Şəkil 1. Nümunə meydançalarında rast gəlinən növlərin fəsilələr üzrə paylanması**

Bitkilərin həyati formalarının təhlili göstərir ki, tədqiq olunan ərazi florasında polikarp otlar – 68 növlə üstünlük təşkil edirlər. Monokarp otlar da 35 növ olmaqla, çoxsaylıdırlar. Bitki qruplaşmalarının tərkibində kollardan *Caragana grandiflora, Halocnemum strobilaceum*, kolcuqlardan *Suaeda microphylla, S.ericoides*, yarımkollardan *Alhagi pseudalhagi, Salsola dendroides, Astragalus igniarius*, yarımkolcuqlardan *Anabasis aphylla, Camphorosma monspeliaca* və s. növlərə də rast gəlinir.

Çaykənarı çöküntülükdə, daimi nəm yerlərdə, xüsusilə çayların kənarlarında *Cynodon dactilon* (L.) Pers., *Taraxacum grossheimii* Schischk. və b. bitkilərin dominantlığı ilə yaranmış çəmənliklər müəyyən edilmişdir. Bu çəmənliklərdə *Poa bulbosa* L., *P.pratensis* L., *Setaria pumila* (Poir.) Roem.et Schult., *Alopecurus myosuroides* Huds., *Aeluropus littoralis* (Gouan.) Parl., *Lotus caucasicus* Kuprian ex Juz. və başqalarına da rast gəlinir. Çaybasarlarda ayrıqotlu-müxtəlifotlu çəmənlik və yulğunun üstunlüyü ilə yaranan seyrək bitkilik çox da geniş olmayan ərazidə yayılmışdır. Belə ərazilər üçün ***İmperata cylindrica* (L.) Raeusch.**, ***Erianthus ravennae* (L.) Beauv.**, *Alopecurus arundinaceus* Poir., *Typha* ***angustifolia*** **L.**, *Cynanchum acutum* **L.**, *Carex cuspidata* Host, *C.diluta* Bieb., *C.divisa* Huds., *C.****halleriana*** **Asso.**, *Stachys* L. cinsi növləri və s. xarakterik bitkilərdir. Həddən artıq rütubətli düzənliklərdə *Pseudosophora alopecuroides* (L.) Sweet, *Juncus inflexus* L., *J.compressus* Jacq, *Carex acutiformis* Ehrh., *C. tomentosa* L., *Xanthium spinosum* L., *X. strumarium* L. və b. növlər geniş yayılmışdır. Bataqlıqlı çəmənliklərdə isə *Bolboschoenus maritimus* (L.) Palla, *Phragmites australis* (Cav.) Trin. ex Steud., *Typha minima* Funck, *T. angustifolia*, *Schoenoplectus tabernaemontani* C.C.Gmel., *S.lacustris* L., *Orchis palustris* Jacq., *O.simia* Lam., *Bromus japonicus* Thunb., *Juncus bufonius* L., *Ranunculus oxyspermus* Willd. və b. növlər edifikator kimi senozlarda iştirak edirlər.

Tədqiq olunan rayonların otlaq və biçənək kimi istifadə olunan ərazilərində səhra və yarımsəhra bitkilik tipində yovşanlıq (*Artemisieta*), gəngizlik (*Salsoleta nodulosae*), şorangəlik (*Salsoleta*) və efemerlik (*Ephemereta*) formasiyaları daxilində 5 assosiasiya qeydə alınmış və nümunə meydançaları qurulmuşdur.

*Səhra bitkilik tipində otlaq kimi istifadə olunan şorangəlik formasiyası müəyyən edilmişdir. Burada çoxillik yarım kollardan Suaeda Forssk. Ex Scop., Salsola L., Kochia Roth və b. cinslərin nümayəndələri iştirak edirlər. Bu bitkilər tədqiq olunan ərazilərdə qış otlaqlarının əsas yem bazasını təşkil edirlər. Senozların əsas edifikatorları Suaeda dendroides (C.A.Mey.) Moq., S.microphylla Pall., Atriplex tatarica L., Salsola nodulosa (Moq.) İljin, S.ericoides Bieb., Kochia scoparia (L.) Schrad. və d. növlər də göstərmək olar. Bu otlaqların tərkibində yem bitkiləri əsasən taxıllardan Bromus japonicus, B.danthoniae Trin., Eremopyrum triticeum (Gaertn.) Nevski, Anizantha tectorum (L.) Nevski və d. ibarətdir. Bu taxıllar kiçik buynuzlu mal-qara üçün ən yaxşı yemdir və daha çox səhralıqlarda rast gəlinir. Müxtəlifot yem qrupuna misal olaraq Cynodon dactilon, İmperata cylindrica, Scorzonera leptophylla (DC.) Grossh., Artemisia fragrans* Willd., *Tragopogon tuberosus C.Koch, Koelpinia linearis Pall., Crupina vulgaris Cass., Lepidium perfoliatum L., Dichasianthus torulosus (Desf.) Sojak, Leptaleum filifolium (Willd.) DC., Chorispora tenella (Pall.) DC. və b. növləri göstərmək olar.*

Şorangəli səhralar qış otlağı kimi əsasən noyabrın ortalarından yaxud da dekabrın əvvəllərindən aprelə kimi istifadə olunur. Bu ərazilərdə əsasən yovşanlı-şorangəlik və qaraşoranlı-şahsevdili-qarağanlıq assosiasiyaları yayılmışdı. Yovşanlı şorangəlik senozları *Artemisia fragrans, A.scoparia* Waldst. et Kit., *Petrosimonia triandra, Salsola ericoides* növlərinin dominantlığı ilə formalaşmşdı. Bu cür fitosenozların tərkibində senoz əmələgətiricilərdən başqa *Ceratocarpus arenarius* L., *Gamanthus pilosus* (Pall.) Bunge, *Salsola crassa, Salicornia prostrata* Pall., *Halocnemum strobilaceum* (Pall.) Bieb. və b. növlər də iştirak edirlər. Bu qruplaşmanın formalaşmasında 18 növ iştirak edir, ümumi lahiyə örtüyü 35-40% təşkil edir. Senozun məhsuldarlığı yaz və payız fəslində uyğun olaraq 7,06-5,04s/ha təşkil edir.

*Salsola dendroides, Halostachys caspia* C.A.Mey., *Halocnemum strobilaceum* növlərinin dominantlığı ilə əmələ gələn qaraşoranlı-şahsevdili-qarağanlıq assosiasiyasının efemerli yarusu – *Anizantha tectorum, Eremopyrum orientale* (L.)

Jaub. et Spach, *E.triticeum* və b. olduqca aydın görünür. Ümumi lahiyə örtüyü 35% təşkil edir. Senozun orta məhsuldarlığı yazda 6.07s/ha, payızda 5,85s/ha təşkil edir.

Tədqiqat ərazisinin boz-qonur, boz-qəhvəyi şorakətvari torpaqlarında yarımsəhra bitkiliyi inkişaf etmişdir. Yarımsəhra yem bitkiləri heyvandarlığın, əsas olaraq da kənd təsərrüfatının inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu bitkilikdə gəngizlik, yovşanlıq və efemerlik formasiyalarında birillik şorangəli-gəngizlik (*Salsola nodulosa-S.tragus-Petrosimonia triandra-Kochia scoparia),* iyli yovşanlı-taxıllıq *(Poa bulbosa-Artemisia fragrans)* və taxıllı-müxtəlifotluq (*Poaetum-Herbosum)* assosiasiyaları müəyyən edilmişdir.

Gəngizlik formasiyası daxilində birillik şorangələrin dominantlığı ilə formalaşmış birillik şorangəli-gəngizlik assosiasiyası əsasən şorakətli torpaqlarda geniş yayılmışdır. *Bu qurplaşmanın tərkibində 20-23 növə rast gəlinir, ümumi lahiyə örtüyü 55% təşkil edir.* Bu qruplaşmaların tərkibində şorangələrin lahiyə örtüyü (LÖ) 70%, müxtəlifotlar və paxlalıların LÖ 20%, taxılların isə LÖ 10% təşkil edir. Otluğun məhsuldarlığı 14,38-11,38s/ha arasında dəyişir. Birillik şoran bitkilərdən *Kochia scoparia, Salsola tragus* subdominant olaraq senozun tərkibində iştirak edirlər. Bu otluğun tərkibində paxlalılar əsasən birillik efemerlər kimi iştirak edir. Onlardan *Vicia varia, Medicago lupulina* L., *Trigonella arcuata* C.A.Mey, *Glycyrrhiza glabra* L. və d. növlər bolluq təşkil edir. Digər paxlalılar olduqca azsaylıdırlar. *Melilotus albus* Medik., *M.officinalis* (L.) Pall., *Medicago caerulea* Less.ex Ledeb., *Alhagi pseudalhagi (Bieb.) Fisch. növləri də yem əhəmiyyətlidirlər.*

Iyli yovşanlı-taxıllıq assosiasiyasının edifikatorları iyli yovşan və soğanaqlı dişədir, uyğun olaraq lahiyə örtüyü 20%-dir. Bu qruplaşmanın ümumi layihə örtüyü 40% təşkil edir, rast gəlinən növlərin sayı 20-dir. Üst yarusu təşkil edən *Stipa capillata* L., *S.barbata* Desf. növlərinin hər biri üçün lahiyə örtüyü 5%-dən azdır, *Camphorosma monspeliaca* L. növünün LÖ 10%-dən azdır. Aşağı yarus efemerlərdən - *Festuca pratensis* Huds, *Agropyron pectinatum* (Bieb.) Beauv., *Eremopyrum triticeum* və *E.orientale* növünün iştirakı ilə formalaşmışdır. Payızda bu qruplaşmanın lahiyə örtüyü *Anabasis aphylla* L. növünün heabına artır. Senozun tərkibində həmçinin *Salsola tragus* L., *Gypsophila stevenii* Fisch. et Schrank növlərinə də rast gəlinir. Senozun orta məhsuldarlığı yazda 5.48s/ha, payızda 3,74s/ha təşkil edir.

Taxıllı-müxtəlifotluğun tərkibində *Poa nemoralis* L., *Brachypodium sylvaticum* (Huds) Beauv, *Bromus danthoniae* Trin. *Dactylis glomerata* L, *Glyceria notata* Chevall., *Trisetum rigidum* (Bieb.) Roem.et Schult., *Hordeum bulbosum* L., *H.geniculatum* All., *Calamagrostis macrolepis* Litv. və b. növlər ekoloji mühit şəraitindən asılı olaraq hündürotlu senozları formalaşdırırlar. Bu bitkilər senozların əsasən üst yarusunu təşkil edirlər. Geobotaniki təsvirlər zamanı bu fitosenozların tərkibində 30-35 növün iştirak etdiyi məlum olmuşdur. Otluğun tərkibində taxıllardan başqa paxlalılar və müxtəlifotlar da iştirak edirlər: *Trifolium phleoides* Pourr., *Lotus caucasicus* Kuprian ex Juz., *Vicia variabilis* Freyn et Sint., *V.varia* Host, *Onobrychis cyri* Grossh., *Medicago caerulea* Less. Ex Ledeb., *Lathyrus incurvus* (Roth.) Roth., *Amoria repens* (L.) C.Presl., *Salvia virgata* Jacq., *Achillea nobilis* L., *Potentilla recta* L., *Veronica triphyllos* L. və b. Alçaq boylu taxıllardan *Poa pratensis, Festuca gigantea* (L.) Vill., *Lolium rigidum* Gaudn., *Agrostis gigantea* Roth, *Bromus squarossus* L., *Cutandia rigescens* (Grossh.) Tzvel. və b. fitosenozların tərkibində komponent kimi iştirak edirlər. Otlaq və biçənəklərin yem dəyəri əsasən taxılların hesabına formalaşır, lakin paxlalılar və müxtəlifotlar da onlardan geri qalmır. Paxlalılar arasında *Trifolium phleoides, T.medium* L., *T.echinatum* Bieb., *Lotus caucasicus* Kuprian. ex Juz., *Caragana grandiflora* (Bieb.) DC., *Astragalus glycyphyllos* L., *A.igniarius* M.Pop. *Vicia variabilis* və b. müxtəlif fitosenozların tərkibində dominant kimi iştirak edirlər. Bunlardan başqa *Melilotus* Hill., *Securigera* DC., *Lotus* L., *Trifolium* L., *Lathyrus* L., *Astragalus* L., *Vicia* L. və d. cinslərin nümayəndələrinin də böyük xammal ehtiyatı vardır. Taxıllı fitosenozlarda orta məhsuldarlıq yazda 6,97s/ha, payızda isə 3,78s/ha

**Cədvəl**

**Seçilmiş nümunə meydançalarında bitki qruplaşmalarının məhsuldarlığı və quruluşu**

| № | Bitkilik tipi | Bitki qruplaşmaları | Növlərin sayı | Yarusluq | Ümumi layihə örtüyü (%) | Məhsuldarlıq (s/ha) | Bolluq |
|---|---|---|---|---|---|---|---|
| 1 | Səhra | *Artemisia fragrans- A. scoparia - Petrosimonia triandra – Salsola ericoides* | 18 | II | 35-40 | 7,76-5,04 | $Cop_2$ |
| 2 | | *Salsola dendroides - Halostachys caspia-Halocnemum strobilaceum* | 17 | III | 35 | 6.07-5,85 | $Cop_1$ |
| 3 | Yarımsəhra | *Salsola nodulosa-S.tragus-Petrosimonia triandra-Kochia scoparia* | 20-23 | III | 55 | 14,38-11,38 | $Cop_2$ |
| 4 | | *Artemisia fragrans-Poa bulbosa* | 20 | II | 40 | 5.48- 3,74 | $Cop_1$ |
| 5 | | *Poaetum-Herbosum* | 30-35 | III | 70 | 6,97-3,78 | $Cop_3$ |

təşkil etmişdir. Bu qruplaşmanın ümumi lahiyə örtüyü 70% təşkil edir.

Tədqiqat dövründə otlaq və biçənək kimi istifadə olunan aran rayonları ərazisində səhra və yarımsəhra bitkiliyində 5 bitki qruplaşması (taxıllı-müxtəlifotluq, yovşanlı-şorangəlik, qaraşoranlı-şahsevdili-qarağanlıq, birillik şorangəli-gəngizlik, iyli yovşanlı-taxıllıq) qeydə alınmış, yaz və payız mövsümündə məhsuldarlıq hesablanmışdır. Məhsuldarlığın ən yüksək göstəricisi daha çox qış otlağı kimi istifadə olunan birillik şorangəli-gəngizlikdə 14,38-11,38s/ha və yovşanlı-şorangəlikdə 7,76-5,04s/ha, yaz otlaqlarında isə taxıllı-müxtəlifotluq 6,97-3,78s/ha təşkil etmişdir (cədvəl 1.). Bu qruplaşmaları bitki örtüyünün bolluğuna görə də otlaq və biçənək kimi istifadəsi yararlı olan senozlardan hesab etmək olar.

*Müəyyən edilmişdir ki, qış otlaqlarının flora zənginliyi və yem bitkilərinin mövsümi məhsuldarlığı kifayət qədər zəngindir, lakin sahələrdən məqsədəuyğun istifadə olunmadığından otlaqların yem potensialı azalmaqdadır ki, bu da heyvandarlığın inkişaf tempinə cavab vermir. Bu otlaq və biçənəklərin mövsümə uyğun olaraq növbəli istifadəsi fitomüxtəlifliyin qorunması və iqtisadi səmərəlilik baxımından məqsədəuyğun olardı.*

**ƏDƏBİYYAT**

1.İbadullayeva S.C., Nəbiyeva F.X. Kür Araz ovalığı və Arazboyunda səhralaşmanın yaranma səbəbləri. M.Abduyevin 85 illik yubileyinə həsr edilmiş Beynəlxalq konfransın materialları 8-10 iyun, 2013. s.256-259. 2.Ларин И.В. Практикум по луговодству и пастбищному хозяйству / Соавт. Т. Р. Годлевский и др. 2-е изд., перераб. М.: Колос, 1964. 239 с. 3.Полевая геоботаника//под.общ.ред. Е.М.Лавренко, А.А.Корчагина: В 5т. М; Л.: Наука, 1964 (Т.3, 442 стр.) -1972 (Т.4. 336 стр.) 4.Прилипко Л.И. Растительный покров Азербайджана. Издательство «Элм», Баку, 1970, с. 91-11. 5.Серебяков И.Г. Экологическая морфология растений. Жизненные формы покрытосеменных и хвойных. М.:Высш. шк., 1962, 378 с. 6.Тайшин В.А., Ботонова А.С. Методические аспекты в хозяйственной оценке пастибищных ресурсов//Современные проблемы науки и образования. 2006.№5. ст.86-87. 7.Н.З.Шамсутдинов, З.Ш.Шамсутдинов. Использование галофитов для устойчивого развития жизнеспособного сельского хозяйства в аридных районах России и Центральной Азии. Журнал «Аридные экосистемы», 2003, том 9, № 19-20. 8.Юндин И.А. Травы (Характеристика и способы использования пастбищ и сенокосов Кахахстана). Краткий справочник. Научный редактор акад. Д.А.Зыков. Издательство «Кайнар». Алма-Ата, 1968, с.43 -94. 9.Nichols P.G.H., Loi A., Nutt B.J., Evans P.M., Craig A.D., Pengelly B.C., Dear B.S., Lloyd D.L., Revell C.K. et al., 2007. New annual and short-lived perennial pasture legumes for Australian agriculture-15 years of revolution. In: Field Crops Research, 104, p. 10-23. 10.P.G.H. Nichols, M.R.Norton. Improvement of pasture and forage legumes and grasses for Mediterranean climate zones\\Options Méditerranéennes, Ecosystem services and socio-economic benefits of Mediterranean grasslands, A, no. 114, 2016, pg.157-167

**Современное состояние некоторых ценозов использованных для пастбищ и сенокосов в центральных аранских зонах Азербайджана**

**Н.В.Мовсумова**

В статье анализировано современное состояния некоторых растительных группировок в сенокосах и пастбищ, а также проведены сезонные мониторинги и продуктивность. В исследованиях изучены жизненные формы растений, а также изменения, происходящие в таксономическом составе и строении фитоценозов. Выяснено что, 35% исследуемой флоры занимают ценокосы и пастбищы. Рассчитан продуктивность пастбищ в вегетативном периоде: *Poaetum-Herbosum* 6,97-3,78с/га, *Artemisia fragrans- A. scoparia - Petrosimonia triandra – Salsola ericoides* 7,76-5,04с/га, *Salsola dendroides - Halostachys caspia- Halocnemum strobilaceum* 6,07-5,85с/га, *Salsola nodulosa-S.tragus-Petrosimonia triandra-Kochia scoparia* 14,38-11,38с/га, *Artemisia fragrans-Poa bulbosa* 5.48- 3,74с/га.

***Ключевые слова:*** *аранские зоны, пастбищ и сенокосы, кормовые растения, продуктивность*

**The current situation of some cenoses used as pasture and hayfield in the central low-lying lands of Azerbaijan**

**N.V.Movsumova**

The article is devoted to the seasional monitoring and productivity of "current-state-analyzed" plant groups which spread on the pasture and hayfield of the low-lying lands in Azerbaijan.

The taxonomical content and structure of phytocenoses, as well as changes and vital shapes were analyzed in the research.

It was revealed that pasture and low-lying lands are about 35% of the flora of the area.

The productivity of pastures was calculated in the seasonal vegetation period: *Poaetum-Herbosum* 6,97-3,78s/ha, *Artemisia fragrans- A. scoparia - Petrosimonia triandra – Salsola ericoides* 7,76-5,04s/ha, *Salsola dendroides - Halostachys caspia-Halocnemum strobilaceum* 6,07-5,85s/ha, *Salsola nodulosa-S.tragus-Petrosimonia triandra-Kochia scoparia* 14,38-11,38s/ha, *Artemisia fragrans-Poa bulbosa* 5.48- 3,74s/ha.

***Key words:*** *low-lying lands, pasture and hayfields, feed crops, productivity*